# Azərbaycan beynəlxalq əməkdaşlıq üçün açıq ölkədir

Bu gün Azərbaycanın Qərb ölkələri ilə əməkdaşlığı xüsusi əhəmiyyət daşıyır. Ölkəmiz Avropaya inteqrasiya istiqamətində çox uğurlu addımlar atıb, demokratik dəyərlərin tətbiqi sahəsində nailiyyətlər qazanıb. Azərbaycan Avropa Şurasının, ATƏT-in fəal üzvlərindən biridir. Ölkə parlamenti tərəfindən müstəqillik illərində qəbul olunmuş qanunlar mütəmadi olaraq Venesiya Komissiyası və ATƏT DTİHB-in müsbət rəylərini alıb. Azərbaycan parlamentinin nümayəndə heyəti Avropa Şurası Parlament Assambleyasının işində fəal iştirak edir.

Bundan əlavə, Azərbaycanın Avropanın enerji təhlükəsizliyində oynadığı rol ayrıca bir söhbətin mövzusudur. Bununla bağlı Avropa İttifaqının ayrı-ayrı rəsmi şəxsləri, eləcə də ABŞ diplomatları həmişə yüksək fikirlər söyləmiş, Azərbaycanın bu sahədə oynadığı rolu dəyərləndirmişlər. Aİ rəsmisi Şarl Mişel Azərbaycana sonuncu səfəri zamanı Ələt Azad İqtisadi Zonası ilə yaxından maraqlanıb.

Azərbaycan müstəqil siyasət yürüdən ölkə kimi BMT çərçivəsində əməkdaşlıq məsələlərinə də xüsusi diqqət yetirir. Ölkəmiz təşkilatın üzvü olan 155 ölkənin dəstəyi ilə BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilərək təşkilatla münasibətlərini daha da möhkəmləndirmişdir. Pandemiya dövründə bu münasibətlər daha da dərinləşib. Azərbaycan pandemiya ilə mübarizə ilə bağlı BMT-də xüsusi iclas keçirilməsi təşəbbüsü ilə çıxış edib və təşəbbüs təşkilat üzvləri tərəfindən dəstəklənib.

Ölkəmiz Avropanın enerji təhlükəsizliyinə mühüm töhfələr verməkdədir. Prezident İlham Əliyev bu il oktyabrın 2-də İspaniyanın EFE informasiya agentliyinə müsahibəsində də bu barədə, eləcə də, Azərbaycan qazının Avropaya ixracı haqqında danışıb. Dövlətimizin başçısı deyib ki, biz təbii qazımızı Avropaya ixrac etməyə ötən ilin son günü – dekabrın 31-də başladıq. Həmin vaxtdan etibarən ixracımızın profili artmaqdadır: “Biz uzun illər, 15 il ərzində Avropa bazarında etibarlı neft təchizatçısıyıq və hər hansı fasilə olmayıb. İndi isə təbii qazın etibarlı təchizatçısı kimi biz öz rolumuzu oynayırıq. Bizim təbii qazın qiyməti digər mənbələrdən daxil olan qazdan ucuzdur. Bu qaz yeni mənbədən gəlir. Cənub Qaz Dəhlizinin vacibliyi nəinki əlavə qaz həcmləri, o cümlədən, alternativ mənbə olması ilə izah edilir. Bu, enerji təhlükəsizliyi məsələsidir. Biz Avropa istehlakçılarına göndərdiyimiz qazı artıq müqavilə əsasında satmışıq. Buna görə, əgər Avropa istehlakçılarından əlavə tələbat olarsa, biz danışıqlara başlamalıyıq”.

Prezident bildirib ki, Azərbaycanda təbii qazın təsdiq edilmiş ehtiyatları 2,6 trilyon kubmetrdir. Belə həcm öz istehlakımız və ixrac üçün, ən azı, 100 ilə kifayət edər. Hazırda ölkəmiz yeni yataqların kəşf edilməsi mərhələsindədir. Azərbaycanın neft və qaz sektoruna böyük enerji şirkətləri arasında maraq artır: “Biz həcmi və hasilatı artıra bilərik, lakin bunun üçün hazırda danışıqlara başlamalıyıq və yeni müqavilələri imzalamalıyıq. Sonra isə, daha çox hasilata sərmayə yatıracağıq”.



***Azərbaycan müstəqillik illərində həm dünyanın əksər ölkələri ilə, həm də beynəlxaq təşkilatlarla sıx əlaqələr qurub. Bu əlaqələr, bu və ya digər ölkələrlə iqtisadi-ticari, eləcə də, siyasi münasibətlər, qarşılıqlı faydalı əməkdaşlıq bu gün də uğurla davam etməkdədir. Şübhəsiz ki, Azərbaycanın dünyaya inteqrasiyası, beynəlxalq təşkilatlarla əməkdaşlığı ilə bağlı çoxşaxəli siyasətin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Cənab İlham Əliyevin prezidentliyi dövründə isə istər ayrı-ayrı ölkələrlə, istərsə də nüfuzlu beynəlxalq təşkilatlarla əlaqələr nəinki davam etdirilib, hətta daha da genişləndirilib.***

Azərbaycan son iki ildə koronavirus pandemiyası ilə mübarizə məqsədilə Ümumdünya Səhiyyə Təşkilatı ilə sıx əməkdaşlıq edib. Təşkilata 10 milyon ABŞ dolları həcmində könüllü maliyyə töhfəsi, 30-dan artıq ölkəyə humanitar və maliyyə yardımı edib. Bundan əlavə, dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərmişik.

Azərbaycan pandemiyanın öhdəsindən gəlmək üçün daha güclü qlobal həmrəyliyin tərəfdarıdır. Qoşulmama Hərəkatının sədri qismində rəsmi Bakı bir sıra qlobal təşəbbüslər irəli sürüb. 2020-ci ilin may ayında ölkəmizdə Qoşulmama Hərəkatının Təmas Qrupu ölkələrinin COVID-19-la mübarizəyə həsr edilmiş Zirvə toplantısı təşkil edilib. Prezident İlham Əliyev Zirvə toplantısı zamanı Qoşulmama Hərəkatı adından BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində koronavirusla mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsini təklif edib. Həmin təşəbbüs BMT-yə üzv olan 150-dən artıq dövlət tərəfindən dəstəklənib və 2020-ci il 3-4 dekabr tarixlərində xüsusi sessiya baş tutub. Azərbaycan dəfələrlə açıq şəkildə peyvəndlərin zəngin ölkələr tərəfindən öz ehtiyaclarından daha artıq miqdarda alınması ilə bağlı öz narazılığını ifadə edib: “Biz davam edən “peyvənd millətçiliyi” və peyvəndlərə çıxışla əlaqədar inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlər arasında dərinləşən qeyri-bərabərliklə bağlı narahatlığımızı bir daha vurğulayırıq. Belə hərəkətlər inkişaf etməkdə olan ölkələrin öz əhalisini qorumasını əngəlləyir. Beynəlxalq hesabatlara əsasən, bu günə qədər dünyada mövcud olan peyvənd dozalarının 75 faizindən çoxu 10 zəngin ölkə tərəfindən alınıb, aşağı gəlirli ölkələrdə isə peyvəndlənmə 2 faizdən azdır”.

Bu məsələyə beynəlxalq diqqətin cəlb edilməsi məqsədilə Azərbaycan BMT-nin İnsan Hüquqları Şurasında Qoşulmama Hərəkatı adından bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsinə dair qətnamə irəli sürüb və həmin qətnamə cari ilin mart ayında yekdilliklə qəbul edilib. Azərbaycan liderinin sözlərinə görə, COVID-19-dan sonra daha yaxşı bərpa üçün güclü, əlaqələndirilmiş və məqsədyönlü qlobal addımlara ehtiyac var, ona görə də pandemiyadan sonrakı dövr üçün qlobal tədbirlərə dair tövsiyələr hazırlayacaq BMT-nin Yüksək Səviyyəli Paneli yaradılmalıdır.

Prezident deyib ki, bu il Qoşulmama Hərəkatının yaradılmasının 60 illiyidir. Qoşulmama Hərəkatının 120 üzvünün yekdil qərarı ilə Azərbaycan 2019-cu ilin oktyabrında Bakıda keçirilmiş dövlət və hökumət başçılarının 18-ci Zirvə toplantısında üç il ərzində hərəkata sədrliyi öz üzərinə götürüb. Azərbaycan beynəlxalq ədalətin və beynəlxalq hüquq normalarının təmin edilməsini, habelə hərəkata üzv dövlətlərin legitim maraqlarını güclü şəkildə müdafiə edir. Bu il hərəkata üzv dövlətlər Azərbaycanın sədrliyinin daha bir il – 2023-cü ilin sonuna qədər uzadılmasına dair yekdil qərar qəbul ediblər. Bu, bütün dünya üçün çətin bir dövrdə Azərbaycanın hərəkata uğurlu və səmərəli şəkildə sədrlik etməsinin təsdiqi və yüksək qiymətləndirilməsinin əlamətidir.

BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan dünyada 2030-cu il Gündəliyinin icrası ilə bağlı 3-cü Könüllü Milli Hesabatını təqdim edən 12 ölkədən biri, öz regionunda isə ilk dövlətdir. Dayanıqlı İnkişaf Məqsədlərinin nailiyyət indeksi üzrə mümkün 100 xaldan 72,4 xal toplayan Azərbaycan regionda ən yaxşı nəticə göstərərək 2021-ci il üzrə Dayanıqlı İnkişaf Hesabatında 165 ölkə arasında 55-ci yeri tutmuşdur. Hesabatda Azərbaycanın yoxsulluğun azaldılması, səhiyyə, qidalanma, qadınların əmək bazarında iştirakı, təmiz su və sanitariya, enerjiyə əlçatanlıq, internet istifadəsi, nəsli kəsilmək təhlükəsi olan canlıların mühafizəsi, əhalinin rifahının yaxşılaşdırılması, şəhər və yaşayış məntəqələrinin dayanıqlı inkişafı sahələrində əldə etdiyi tərəqqi vurğulanır.

Azərbaycan Şərq–Qərb, Şimal–Cənub və Şimal–Qərb nəqliyyat dəhlizləri kimi regional əlaqələndirmə layihələrinin icrasında fəal iştirak edir və bununla da Avrasiyanın əsas və etibarlı nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Artıq Bakı Beynəlxalq Ticarət Limanı istifadəyə verilib ki, onun yükaşırma qabiliyyəti 15 milyon tona bərabərdir və ehtiyacdan asılı olaraq bu həcm 25 milyon tona qədər artırıla bilər.

Azərbaycan Paris İqlim Sazişini ratifikasiya edib, 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının səviyyəsində 35 faiz azalma ilə bağlı öz üzərinə könüllü öhdəlik götürüb. Bununla yanaşı, ölkə Paris Sazişi çərçivəsində 2050-ci il üçün şərti hədəflərin müəyyən edilməsi imkanlarını araşdırır. Prezident vurğulayıb: “Hazırda ölkənin ümumi enerji istehsalında bərpa olunan enerjinin payı 17 faiz təşkil edir. Hədəfimiz 2030-cu ilə qədər bu rəqəmi 30 faizə çatdırmaqdır. Növbəti 3-4 il ərzində ümumi gücü 700 meqavat təşkil edəcək 3 külək və günəş elektrik stansiyalarının inşasına sərmayə qoyuluşuna dair üç böyük beynəlxalq enerji şirkəti ilə müqavilələr imzalanıb. Layihələrdən biri 44 günlük Vətən müharibəsi zamanı Ermənistanın işğalından azad edilmiş Şərqi Zəngəzur bölgəsində həyata keçiriləcək. 240 meqavat gücündə bu günəş elektrik stansiyası Azərbaycanın azad olunmuş ərazilərində ən böyük birbaşa xarici sərmayə qoyuluşu layihəsi olacaqdır. Mən digər beynəlxalq enerji şirkətlərini də Azərbaycanın azad olunmuş ərazilərində yaşıl enerji layihələrinə sərmayə qoymağa dəvət edirəm”.

Azərbaycanın beynəlxalq əlaqələri, təbii ki, bununla məhdudlaşmır. Biz bu yazıda yalnız bəzi vacib detallar üzərində dayandıq. Şübhəsiz ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq əlaqələri, bununla yanaşı, nüfuzu da artacaq, bizimlə əməkdaşlıq etməyə can atan ölkələrin sayı çoxalacaq.

***Paşa ƏMİRCANOV,***
***“Xalq qəzeti”***